# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA ELMİN İNKİŞAFI FONDU

**Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun elmi-tədqiqat proqramlarının, layihələrinin və digər elmi tədbirlərin maliyyələşdirilməsi məqsədi ilə qrantların verilməsi üzrə 2013-cü il üçün elan edilmiş əsas qrant müsabiqəsinin (EİF-2013-9(15)) qalibi olmuş layihənin yerinə yetirilməsi üzrə**

## YEKUN ELMİ-TEXNİKİ HESABAT

Layihənin adı: **Aqrar istehsal strukturunun diversifikasiyasının iqtisadi əsaslandırılması (Gəncə-Qazax iqtisadi rayonunun misalında)**
Qrantın məbləği: **65 000 manat**
Layihə rəhbərinin soyadı, adı və atasının adı: **Hüseynov Məhərrəm Cəlal oğlu**
Layihənin nömrəsi: **EİF-2013-9(15)-46/43/5-M-29**
Müqavilənin imzalanma tarixi: **09 fevral 2015-ci il**
Qrant layihəsinin yerinə yetirilmə müddəti: **12 ay**
Layihənin icra müddəti (başlama və bitmə tarixi): **01mart 2015-ci il – 01 mart 2016-cı il**
Diqqət! Bütün məlumatlar 12 ölçülü Arial şrifti ilə, 1 intervalla doldurulmalıdır
Diqqət! Uyğun məlumat olmadığı təqdirdə müvafiq bölmə boş buraxılır

Hesabatda aşağıdakı məsələlər işıqlandırılmalıdır:

| | |
|---|---|
| 1 | Layihənin həyata keçirilməsi üzrə yerinə yetirilmiş işlər, istifadə olunmuş üsul və yanaşmalar |
| | *(burada doldurmalı)*<br>Gəncə-Qazax iqtisadi rayonuna daxil olan hər bir rayon üzrə aşağıdakı işlər yerinə yetirilmişdir:<br>1. Torpaq resurslarının strukturu təhlil edilmiş, kənd təsərrüfatına yararlı torpaqlarla təmin olunma səviyyəsi araşdırılmış, ondan istifadə səviyyəsi müəyyənləşdirilmişdir.<br>2. Əmək resurslarının strukturu təhlil edilmiş, məşğul əhalinin dinamikası və ümumi əmək resurslarının tərkibində tutduğu xüsisi çəki müəyyən edimiş, məşğulluğa təsir edən amillər qiymətləndirilmişdir.<br>3. Texniki resurslarla təmin olunmanın mövcud vəziyyəti araşdırılmış, ondan istifadə səviyyəsi müəyyənləşdirilmişdir.<br>4. Su resursları ilə təmin olunmanın mövcud vəziyyəti araşdırılmış, ondan istifadə səviyyəsi müəyyənləşdirilmişdir. |

| | |
|---|---|
| | 5. Maliyyə vəsaiti ilə təmin olunma səviyyəsi, o cümlədən kənd təsərrüfatı müəssisələrinin əldə etdikləri mənfəət, dotasiya və subsidiyanın məbləği, kreditlərin həcmi müqayisəli şəkildə təhlil edilmişdir.<br>6. Emal müəssisələrinin istehsal istiqaməti, emal gücü, emal gücündən istifadə səviyyəsi araşdırılmışdır.<br>7. Kənd təsərrüfatı məhsullarının sahə strukturu təhlil edilmiş, tədqiqat aparılan illər üzrə strukturda baş verən dəyişikliklərin istiqaməti və istehsalçıları cəlb edən istehsal sahələri müəyyənləşdirilmiş, cəlbediciliyi stimullaşdıran amillər araşdırılmışdır.<br>8. Kənd təsərrüfatı məhsulları istehsalına çəkilən xərclər təhlil edilmiş, bazar qiymətlərinin dinamikası araşdırılmış, məhsul vahidinin maya dəyəri ilə qiymətlərin səviyyəsi arasındakı nisbət, asılılıq, fərq və onlara təsir edən amillər qiymətləndirilmişdir.<br>9. Kənd təsərrüfatı məhsullarının sahə strukturu həm istehsal sahələri, həm də ümumi məhsulun dəyəri baxımından müəyyənləşdirilməklə istehsal xərclərinin və qiymətlərin sahə strukturunun formalaşmasındakı rolu müəyyənləşdirilmiş, bu göstəricilər arasındakı asılılığın səviyyəsi qiymətləndirilmişdir.<br>10. Kənd təsərrüfatı potensialından səmərəli istifadə və iqtisadi cəhətdən daha üstün kənd təsərrüfatı sahələrinin inkişaf etdirilməsi ilə bağlı mövcud problemlər müəyyənləşdirilmişdir.<br>11. Kənd təsərrüfatı məhsulları bazarının tələbatı müəyyən edilmiş, istehlak norması və əhalinin sayından asılı olaraq tələbin dəyişmə meyli, həmçinin tələblə təklif arasındakı asılılığın səviyyəsi müəyyənləşdirilmişdir.<br>12. Diversifikasiya prosesinin nəticələri araşdırılmış, ayri-ayrı istehsal sahələri üzrə əsas iqtisadi göstəricilər müqayisəli şəkildə təhlil edilmişdir.<br>13. Əsas iqtisadi göstəricilərin müqayisəli qiymətləndirilməsi əsasında istehsal resursları ilə təmin olunma səviyyəsi nəzərə alınmaqla iqtisadi səmərə baxımından daha üstün istehsal sahələri müəyyənləşdirilmişdir.<br>Layihənin yerinə yetirilməsi prosesində sorğular və müşahidələr aparılmaqa statistik məlumatlar toplanmış, təhlillər zamanı balans, müqayisə, analiz, sintez, iqtisadi-riyazi üsullarından istifadə edilmişdir. |
| 2 | Layihənin həyata keçirilməsi üzrə planda nəzərdə tutulmuş işlərin yerinə yetirilmə dərəcəsi (faizlə qiymətləndirməli) |
| | *(burada doldurmalı)*<br>Layihənin həyata keçirilməsi üzrə planda nəzərdə tutulmuş işlər 100% yerinə yetirilmişdir. |
| 3 | Hesabat dövründə alınmış **elmi nəticələr** (onların yenilik dərəcəsi, elmi və təcrübi əhəmiyyəti, nəticələrin istifadəsi və tətbiqi mümkün olan sahələr aydın şəkildə göstərilməlidir) |
| | *(burada doldurmalı)*<br>Layihənin hesabat dövründə əldə edilmiş elmi nəticələrini tədqiqat obyektinə daxil olan rayonlarda kənd təsərrüfatının müxtəlif istehsal sahələri üzrə diversifikasiya strategiyasının formalaşmasında istifadə olunan iqtisadi göstəricilərin əsaslandırılması, kənd təsərrüfatı müəssisələrinin loqistik sistemlərlə iqtisadi əlaqələrinin qurulmasında qarşılıqlı maraqlarının təmin olunması mexanizminin müəyyənləşdirilməsi, diversifikasiya olunan sahələr arasındakı əlaqələrin uzlaşdırılması və diversifikasiya fəaliyyətinin nəticələrinin iqtisadi qiymətləndirilməsi təşkil edir. Aqrar sahədə regional xüsusiyyətlər, istehsal resursları ilə təmin olunma səviyyəsi nəzərə alınmaqla diversifikasiya strategiyasının nəzəri-konseptual muddəalarının təhlili və onun bazar muhitində əhəmiyyətliliyinin əsaslandırılması layihənin yeniliyi kimi qiymətləndirilə bilər.<br>Layihənin nəticələri aqrar sahənin diversifikasiya prosesinə əsaslanan istehsalın daha səmərəli şəkildə şaxələndirilməsi istiqamətlərini müəyyənləşdirmək baxımından mühüm elmi və təcrübəvi əhəmiyyət kəsb edir. Bu baxımdan əldə olunmuş nəticələrdən iqtisadi-elmi tədqiqatlarda, istehsalata tətbiq yönümlü elmi-tədqiqat layihələrində, regional iqtisadi inkişafa xidmət edən dövlət proqramlarında, aqrar sahə ilə bağlı qanunvericilik sənədlərinin hazırlanmasında və istehsalatda istifadə etmək mümkündür. Layihənin nəticələrindən tədris prosesində istifadə |

| | |
|---|---|
| | olunması aqrar iqtisadiyyat üzrə hazırlanan mütəxəssislərin iqtisadi təfəkkür, bilik və elmi ideyalarının formalaşmasına da töhvə verə bilər. Əldə olunmuş nəticələr iqtisadi cəhətdən daha səmərəli kənd təsərrüfatı sahələrinin inkişaf etdirilməsində, diversifikasiya strategiyasının daha əlverişli şərtlərlə reallaşmasında, risklərin səmərəli şəkildə idarə olunmasında, gəlirlərin düzgün bölüşdürülməsində, daha səmərəli və diferensial kreditləşdirmə, subsidiyalaşdırma və investisiya qoyuluşlarının stimullaşdırması tədbirlərinin müəyyənləşdirilməsində istifadə oluna bilər. |
| 4 | Layihə üzrə **elmi nəşrlər** (elmi jurnallarda məqalələr, monoqrafiyalar, icmallar, konfrans materiallarında məqalələr, tezislər) (dərc olunmuş, çapa qəbul olunmuş və çapa göndərilmişləri ayrılıqda qeyd etməklə, uyğun məlumat - jurnalın adı, nömrəsi, cildi, səhifələri, nəşriyyat, indeksi, İmpact Factor, həmmüəlliflər və s. bunun kimi məlumatlar - ciddi şəkildə dəqiq olaraq göstərilməlidir) *(surətlərini kağız üzərində və CD şəklində əlavə etməli!)* |
| | *(burada doldurmalı)*<br>Nəşr olunmuş<br>1. Maharram Huseinov, Vahid Amrahov. About the production diversification issues in agriculture.// International Scientific Journal Theoretical & Applied Science. Section economic research, finance, innovation, risk management - 2015. 174-176. http://TScience.org. http://s-o-i.org/1.1/TAS*04(24)31. İmpact Factor 1,5.<br>2. Vahid Amrahov. The institutional aspects of the formation of agricultural market. // ISJ Theoretical& Applied Science. 10 (30): 72-74. Soi: http://s-o-i.org/ .1/ TAS-10-30-17 Doi: http://dx.doi.org/10.15863/TAS. 2015.10.30.17. İmpact Factor 1,5.<br>3. Р.Мусмафаева. Инвестиционные аспекты продовольственной проблемы. Aqrar elmin və təhsilin innovativ inkişafı: dünya təcrübəsi və prioritetlər. 23-24 oktyabr, Gəncə 2015. Səh. 382-387.<br>4. A.Qasımov. İnnovativ və modern aqrar sahənin formalaşmasında kooperasiyalaşmanın rolu. Davamlı inkişafın milli modeli və strategiyası. Mingəçevir 2015. Səh. 208-209.<br>Çapa göndərilmiş<br>1. M.C.Hüseynov, V.T.Əmrahov, A.M.Qasımov, A.F.Həsənov, N.A.Nərimanov. Aqrar istehsal strukturunun diversifikasiyası (monoqrafiya).<br>2. Maharram Huseinov, Vahid Amrahov. Economic evaluation of the factors causing diversification of the agrarian production (məqalə). |
| 5 | İxtira və patentlər, səmərələşdirici təkliflər |
| | *(burada doldurmalı)* |
| 6 | Layihə üzrə ezamiyyətlər (ezamiyyə baş tutmuş təşkilatın adı, şəhər və ölkə, ezamiyyə tarixləri, həmçinin ezamiyyə vaxtı baş tutmuş müzakirələr, görüşlər, seminarlarda çıxışlar və s. dəqiq göstərilməlidir) |
| | *(burada doldurmalı)*<br>Layihənin icraçıları 3-6 mart, 2-5 iyun, 1-4 sentyabr, 1-4 dekabr 2015-cil tarixlərdə Gəncə-Qazaz iqtisadi bölgəsinə daxil olan hər bir rayon üzrə Dövlət Statistika Komitəsinin şöbələrində ezamiyyətdə olmuşlar. Rayon statistika şöbələrinin mütəxəssisləri ilə müzakirələrin aparılması zəruri informasiyaların toplanmasında və ümumi nəticələr əldə olunmasında əhəmiyyətli rol oynamışdır. |
| 7 | Layihə üzrə elmi ekspedisiyalarda iştirak (əgər varsa) |
| | *(burada doldurmalı)* |
| 8 | Layihə üzrə digər tədbirlərdə iştirak |
| | *(burada doldurmalı)* |
| 9 | Layihə mövzusu üzrə elmi məruzələr (seminar, dəyirmi masa, konfrans, qurultay, simpozium və s. çıxışlar) (məlumat tam şəkildə göstərilməlidir: a) məruzənin növü: plenar, dəvətli, şifahi və ya divar məruzəsi; b) tədbirin kateqoriyası: ölkədaxili, regional, beynəlxalq) |

| | |
|---|---|
| | *(burada doldurmalı)*<br>Layihə mövzusu üzrə Azərbaycan Dövlət Aqrar Universitetində ölkədaxili 2 seminar, 1 dəyirmi masa təşkil edilmişdir. Şifahi və slayd formasında məruzələr dinlənilmişdir. |
| **10** | Layihə üzrə əldə olunmuş cihaz, avadanlıq və qurğular, mal və materiallar, komplektləşdirmə məmulatları |
| | *(burada doldurmalı)* |
| **11** | Yerli həmkarlarla əlaqələr |
| | *(burada doldurmalı)*<br>*Gəncə Dövlət Universitetinin İqtisadiyyat fakultəsinin professor-müəllim heyəti ilə əməkdaşlıq əlaqələri qurulmuşdur* |
| **12** | Xarici həmkarlarla əlaqələr |
| | *(burada doldurmalı)*<br>Almaniyanın Qraysfvold Universiteti və Gürcüstanın Kənd Təsərrüfatı Universiteti ilə əməkdaşlıq əlaqələri qurulmuşdur |
| **13** | Layihə mövzusu üzrə kadr hazırlığı (əgər varsa) |
| | *(burada doldurmalı)* |
| **14** | Sərgilərdə iştirak (əgər baş tutubsa) |
| | *(burada doldurmalı)* |
| **15** | Təcrübəartırmada iştirak və təcrübə mübadiləsi (əgər baş tutubsa) |
| | *(burada doldurmalı)* |
| **16** | Layihə mövzusu ilə bağlı elmi-kütləvi nəşrlər, kütləvi informasiya vasitələrində çıxışlar, yeni yaradılmış internet səhifələri və s. (məlumatı tam şəkildə göstərilməlidir) |
| | *(burada doldurmalı)*<br>Layihə rəhbəri prof. M.Hüseynov layihə mövzusu ilə bağlı “Region” TV-də çıxış etmişdir. |

**SİFARİŞÇİ:**
**Elmin İnkişafı Fondu**

**Müşavir**
Babayeva Ədilə Əli qızı

_______________
*(imza)*
“09” mart 2016-cü il

**Baş məsləhətçi**
Qurbanova Səmirə Yaşar qızı

_______________
*(imza)*
“09” mart 2016-cü il

**İCRAÇI:**

**Layihə rəhbəri**
Hüseynov Məhərrəm Cəlal oğlu

_______________
*(imza)*
“09” mart 2016-cü il

**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA**

**ELMİN İNKİŞAFI FONDU**

MÜQAVİLƏYƏ ƏLAVƏ

**Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun elmi-tədqiqat proqramlarının, layihələrinin və digər elmi tədbirlərin maliyyələşdirilməsi məqsədi ilə qrantların verilməsi üzrə 2013-cü il üçün elan edilmiş əsas qrant müsabiqəsinin (EİF-2013-9(15)) qalibi olmuş layihənin yerinə yetirilməsi üzrə**

# ALINMIŞ NƏTİCƏLƏRİN ƏMƏLİ (TƏCRÜBİ) HƏYATA KEÇİRİLMƏSİ VƏ LAYİHƏNİN NƏTİCƏLƏRİNDƏN GƏLƏCƏK TƏDQİQATLARDA İSTİFADƏ PERSPEKTİVLƏRİ HAQQINDA MƏLUMAT VƏRƏQİ

**(Qaydalar üzrə Əlavə 16)**

Layihənin adı: **Aqrar istehsal strukturunun diversifikasiyasının iqtisadi əsaslandırılması (Gəncə-Qazax iqtisadi rayonunun misalında)**
Qrantın məbləği: **65 000 manat**
Layihə rəhbərinin soyadı, adı və atasının adı: **Hüseynov Məhərrəm Cəlal oğlu**
Layihənin nömrəsi: **EİF-2013-9(15)-46/43/5-M-29**
Müqavilənin imzalanma tarixi: **09 fevral 2015-ci il**
Qrant layihəsinin yerinə yetirilmə müddəti: **12 ay**
Layihənin icra müddəti (başlama və bitmə tarixi): **01mart 2015-ci il – 01 mart 2016-cı il**

## 1. Layihənin nəticələrinin əməli (təcrübi) həyata keçirilməsi

| | |
|---|---|
| **1** | Layihənin əsas əməli (təcrübi) nəticələri, bu nəticələrin məlum analoqlar ilə müqayisəli xarakteristikası |
| | *(burada doldurmalı)*<br><br>Layihənin yerinə yetirilməsində Gəncə-Qazax iqtisadi bölgəsinə daxil olan hər bir rayon üzrə resurslarla təminat, əhalinin istehsal vərdişləri və tələbatı, ixtisaslaşması, istehsalın nəticələrini əks etdirən iqtisadi göstəricilərin hesablanması və müqayisəli qiymətləndirilməsi əsasında əldə olunan təcrübəvi nəticələr aşağıdakılardır:<br>-Goranboy rayonunda əkin sahəsinin 80%-dən çoxunu, bitkiçiliyin ümumi məhsulunun 60%-ə qədərini təşkil edən dənli və dənli paxlalıların rentabelliyinin nisbətən aşağı - 29% olmasına baxmayaraq bu sahənin inkişaf etdirilməsi üçün əlverişli imkanlar mövcuddur. Bitkiçilik məhsullarından meyvə və giləmeyvə, kartof, şəkər şuğunduru, tərəvəz 50-95% rentabelliklə nəticələndiyindən diversifikasiya zamanı bu sahələrə üstünlük verilməsi məqsədəuyğundur. Heyvandarlıqda maldarlıq üzrə daha səmərəli nəticələr əldə etməyin mümkünlüyü aşkar |

edilmişdir;
-Göygöl rayonunda bitkiçilik məhsullarından bostan, tərəvəz və nisbətən kartof istehsalının (40-85% rentabelli) inkişaf etdirilməsi daha əlverişlidir. Rayonda quş əti istehsalını rentabelli (61,4%) hesab etmək olar. Ona görə qeyd edilən sahələrin inkişaf etdirilməsi səmərəli nəticələr əldə etməyə əsas verir;
-Samux rayonunda əkin sahəsinin 72,6%-i, ümumi məhsulun 38,6%-i dənli və dənli paxlalıların payına düşsədə tərəvəz məhsulları və meyvə-giləmeyvə istehsalı digər bitkiçilk sahələrindən gəlirlilik baxımından üstünlüyü ilə fərqlənir (müvafiq olaraq 48,4% və 52,3% rentabelli). Heyvandarlığın maldarlıq və qoyunçuluq istiqamətləri 55-60% rentabelli, qoyunçuluğun əlavə məhsulu olan yun 40-65% rentabelli olduğundan və rayonun kifayət qədər otlaq sahəsinə malik olduğunu nəzərə alsaq bu sahalərə xüsusi diqqət yetirilməsinin məqsədəuyğunluğunu görmək olar;
- Tovuz rayonunda dənli və dənli paxlalılarda rentabelliyin 33,3%, üzümçülükdə 87,3% olması bu sahələrin digərləri ilə müqayisədə iqtisadi cəhətdən daha səmərəli olduğunu göstərir. Rayonda heyvandarlığın inkişafı üçün də əlverişli imkanlar var (südün rentabelliyi 44,6% və s.) və başqa sahələrə nisbətən daha rentabellidir. Ona görə bu sahələrin inkişafına istiqamətlənən tədbirlərə üstünlük verilməsi müsbət nəticələr verə bilər;
- Qazax rayonu üzrə daha səmərəli məhsulların dənli və dənli paxlalılar, tərəvəz, meyvə və giləmeyvə olduğu aydın olur. Müvafiq olaraq bu göstərici 44,5%, 86,7% və 51,7% təşkil etmişdir. Heyvandarlıqda iribuynuzlu mal-qaranın çəki artımı üzrə 47,5%, qoyun və keçilərin çəki artımı 58,4%, süd 96,5%, yun 98,6% rentabellik əldə edilmişdir. Rayonun əlverişli təbii-iqtisadi şəraitə malik oması da bu sahələrin ümumi iqtisadi inkişafda əhəmiyyətli rol oynaya biləcəyini deməyə əsas verir;
- Ağstafa rayonunda kənd təsərrüfatı məhsullarının əkin sahəsinin strukturunda dənli və dənli paxlalılar və heyvandarlıq üçün zəruri olan yem bitkilər əsas yeri tutur. Belə ki, ümumi əkin sahəsinin strukturunda 86,7 % məhz bu məhsulların payına düşür. Ən yüksək rentabellik tərəvəzçilikdə qeydə alımışdır - 78,3%. Heyvandarlıq sahələri bu rayonda səmərəli sahələrdən hesab edilə bilər. Belə ki, iribuynuzlu mal-qaranın çəki artımı üzrə 38,1%, qoyun və keçilərin çəki artımı 44,3%, süd 62,3%, yun 53,8% rentabellik əldə edilmişdir. Ona görə qeyd edilən sahələrin inkişaf etdirilməsi daha səmərəli nəticələr əldə etməyə əsas verir;
- Şəmkir rayonunda kartofçuluq (229% rentabellik), tərəvəzçilik, heyvandarlıqda iri buynuzlu mal-qara, qoyun və keçilərin çəki artımı və süd üzrə rentabellik səviyyəsi 80%-dən yüksək olmuş, yun istehsalı 56,2% rentabelliklə başa gəlmişdir. Bu göstəricilər diversifikasiya prosesində göstərilən sahələrə üstünlük verilməsi üçün əsas hesab oluna bilər;
- Gədəbəy rayonu dağlıq bölgədir və burada əkin üçün geniş ərazi tələb edən bitkiçilik sahəsinin inkişaf etdirilməsi üçün böyük imkanlar olmasada kartof istehsalının rentabellik səviyyəsi kifayət qədər yüksək - 76,4%, tərəvəz istehsalının rentabellik səviyyəsi 99,8% olmuşdur. Heyvandarlıq məhsullarından iribuynuzlu mal-qaranın çəki artımının bir sentnerinin rentabellik səviyyəsi 42,9%, süd istehsalının rentabellik səviyyəsi 240% olmuşdur. Odur ki, daha az gəlirli sahələrin tədricən yüksək rentabelli sahələrlə tədricən əvəzlənməsi iqtisadi cəhətdən səmərəli nəticələr üçün əsas şərtlərdən biri kimi özünü büruzə verir;
- Daşkəsən rayonu üzrə istehsal edilən tərəvəz məhsulları üzrə rentabellik səviyyəsi 116,3%, kartofçuluqda 106,9%-lə nəticələnmişdir. Heyvandarlıqda yalnız iribuynuzlu mal-qaranın çəki artımı və yun məhsulu üzrə qənaətbəxş rentabellik əldə edilmişdir – müvafiq olaraq 52,2% 42,9%. Rayon əhalisinin istehsal vərdişlərini və istehsal resursları ilə təmin olunması səviyyəsini nəzərə alsaq qeyd edilən sahələrin inkişaf etdirilməsinə üstünlük verilməsini daha məqsədəuyğun hesab etmək olar.
Bu nəticələr müvafiq rayonlar üzrə maksimum gəlir əldə etmə imkanlarını müəyyənləşdirməklə gəlirlərin düzgün bölüşdürülməsinə və ondan səmərəli istifadəyə, istehsal və satış risklərini səmərəli şəkildə idarə etməyə, məşğulluğun stimullaşdırılmasına, az gəlirli sahələrə differensial yanaşma tədbirlərini müəyyənləşdirməyə, investisiya qoyuluşlarını stimullaşdırmağa imkan verə bilər.
Azərbaycanda diversifikasiya ilə bağlı tədqiqatlara az rast gəlinir. “Müəssisənin diversifikasiyası strategiyası” mövzusu üzrə S.İsmayılov, "İqtisadiyyatın və ixracın diversifikasiyasının qiymətləndirilməsi” mövzusunda K.Aslanlı, Z. İsmayil, R. Ağayev, A.Mehtiyev tədqiqat

| | |
|---|---|
| | aparmışlar. S.İsmayılov apardığı tədqiqatın nəticələrinə əsaslanaraq diversifikasıyanı müəssisənin qeyri-müəyyən xarici mühitdə risklərinin azaldılması və rəqabətqabiliyyətliliyinin artırılması baxımından mütərəqqi iqtisadi alət kimi qiymətləndirir. İqtisadi dayanıqlığın möhkəmləndirilməsinə, yeni sahələrdə mövqelərin qazanılmasına nail olmayan ayrı-ayrı müəssisələrin satışa çıxarılmasını, qeyri-qənaətbəxş işləyən struktur bolmələrin restrukturizasiyasının aparılmasını təklif edir. Halbuki diversifikasiya strategiyası bu tip müəssisələrin ləğvində deyil, problemlərin həlli yollarının müəyyənləşdirilməsində əhəmiyyətli rol oynamalıdır.<br>K.Aslanlı, Z. İsmayil, R. Ağayev tərəfindən yerinə yetirilən tədqiqatda kənd təsərrüfatının mövcud problemləri araşdırılsada resurslarla təminat, bazar amilləri, regional xüsusiyyətlər, kənd təsərrüfatının xüsusiyyətləri, əhalinin istehsal vərdişləri, istehsalın əsas iqtisadi göstəricilərinin müqayisəli təhlili və s. kimi məsələlər kölgədə qalmış, problemlərin həlli yolları ümumi xarakter daşımaqla əsasən xarici təcrübənin tətbiqində görülmüşdür.<br>Qeyd edilən araşdırmalardan fərqli olaraq "Aqrar istehsal strukturunun diversifikasiyasının iqtisadi əsaslandırılması" mövzusunda yerinə yetirilən layihənin elmi-nəzəri və iqtisadi əsaslandırmalara söykənmiş nəticələrinə əsasən, diversifikasiya strategiyasının hazırlanmasında kompleks amillər – resurslarla təminat, daxili və xarici amillər, əhalinin əmək vərdişləri, bazar amilləri, əhalinin tələbatı, istehsalın nəticələrini əks etdirən iqtisadi göstəricilərə təsir edən amillər və s. nəzərə alınmışdır. |
| 2 | Layihənin nəticələrinin əməli (təcrübi) həyata keçirilməsi haqqında məlumat (istehsalatda tətbiq (tətbiqin aktını əlavə etməli); tədris və təhsildə (nəşr olunmuş elmi əsərlər və s. – təhsil sisteminə tətbiqin aktını əlavə etməli); bağlanmış xarici müqavilələr və ya beynəlxalq layihələr (kimlə bağlanıb, müqavilənin və ya layihənin nömrəsi, adı, tarixi və dəyəri); dövlət proqramlarında (dövlət orqanının adı, qərarın nömrəsi və tarixi); ixtira üçün alınmış patentlərdə (patentin nömrəsi, verilmə tarixi, ixtiranın adı); və digərlərində) |
| | *(burada doldurmalı)*<br>Layihənin nəticələri müxtəlif elm və tədris müəssisələrinə, dövlət orqanlarına göndərilmiş, istifadə üşün qəbul edilmişdir. Belə ki, Azərbaycan Dövlət Aqrar Universiteti (arayış 07-220, 03 mart 2016-cı il), Gəncə Dövlət Universiteti (arayış 45-01-142/01-20, 29 fevral 2016-cı il), Azərbaycan Milli Elmlər Akademiyasının Gəncə Bölməsi (arayış 90-29, 01 mart, 2016-cı il), Azərbaycan Respublikası Milli Məclisinin Aqrar Siyasət Komitəsi (arayış 011/6-17, 02 mart 2016-cı il), Şəmkir rayon İcra Hakimiyyəti Aparatının Sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsi (06/34, 03 mart 2016-cı il) layihədən əldə olunan nəticələri müsbət qiymətləndirmiş, tədris, elmi-tədqiqat, istehsalat, qanunvericilik sənədləri və dövlət proqramlarında istifadə olunması məqbul hesab edilmişdir. |

2. **Layihənin nəticələrindən gələcək tədqiqatlarda istifadə perspektivləri**

| | |
|---|---|
| 1 | Nəticələrin istifadəsi perspektivləri (fundamental, tətbiqi və axtarış-innovasiya yönlü elmi-tədqiqat layihə və proqramlarında; dövlət proqramlarında; dövlət qurumlarının sahə tədqiqat proqramlarında; ixtira və patent üçün verilmiş ərizələrdə; beynəlxalq layihələrdə; və digərlərində) |
| | *(burada doldurmalı)*<br>Layihənin nəticələri aqrar sahənin diversifikasiya prosesinə əsaslanan istehsalın daha səmərəli şəkildə şaxələndirilməsi istiqamətlərini müəyyənləşdirmək baxımından mühüm elmi və təcrübəvi əhəmiyyət kəsb edir. Bu baxımdan əldə olunmuş nəticələrdən iqtisadi-elmi tədqiqatlarda, istehsalata tətbiq yönümlü elmi-tədqiqat layihələrində, regional iqtisadi inkişafa xidmət edən dövlət proqramlarında, aqrar sahə ilə bağlı qanunvericilik sənədlərinin hazırlanmasında və istehsalatda istifadə etmək mümkündür. Layihənin nəticələrindən tədris prosesində istifadə olunması aqrar iqtisadiyyat üzrə hazırlanan mütəxəssislərin iqtisadi təfəkkür, bilik və elmi ideyalarının formalaşmasına da töhvə verə bilər. |

**SİFARİŞÇİ:**
**Elmin İnkişafı Fondu**

**Müşavir**
Babayeva Ədilə Əli qızı

________________________
*(imza)*
“09” mart 2016-cü il

**Baş məsləhətçi**
Qurbanova Səmirə Yaşar qızı

________________________
*(imza)*
“09” mart 2016-cü il

**İCRAÇI:**

**Layihə rəhbəri**
Hüseynov Məhərrəm Cəlal oğlu

________________________
*(imza)*
“09” mart 2016-cü il

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA
# ELMİN İNKİŞAFI FONDU

MÜQAVİLƏYƏ ƏLAVƏ

**Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun elmi-tədqiqat proqramlarının, layihələrinin və digər elmi tədbirlərin maliyyələşdirilməsi məqsədi ilə qrantların verilməsi üzrə 2013-cü il üçün elan edilmiş əsas qrant müsabiqəsinin (EİF-2013-9(15)) qalibi olmuş layihənin yerinə yetirilməsi üzrə**

## ALINMIŞ ELMİ MƏHSUL HAQQINDA MƏLUMAT
## (Qaydalar üzrə Əlavə 17)

Layihənin adı: **Aqrar istehsal strukturunun diversifikasiyasının iqtisadi əsaslandırılması (Gəncə-Qazax iqtisadi rayonunun misalında)**
Qrantın məbləği: **65 000 manat**
Layihə rəhbərinin soyadı, adı və atasının adı: **Hüseynov Məhərrəm Cəlal oğlu**
Layihənin nömrəsi: **EİF-2013-9(15)-46/43/5-M-29**
Müqavilənin imzalanma tarixi: **09 fevral 2015-ci il**
Qrant layihəsinin yerinə yetirilmə müddəti: **12 ay**
Layihənin icra müddəti (başlama və bitmə tarixi): **01mart 2015-ci il – 01 mart 2016-cı il**
Diqqət! Bütün məlumatlar 12 ölçülü Arial şrifti ilə, 1 intervalla doldurulmalıdır

### 1. Elmi əsərlər (sayı)

| № | Tamlıq dərəcəsi / Elmi məhsulun növü | Dərc olunmuş | Çapa qəbul olunmuş və ya çapda olan | Çapa göndərilmiş |
|---|---|---|---|---|
| 1. | Monoqrafiyalar<br><br>həmçinin, xaricdə çap olunmuş | | | 1. M.C.Hüseynov, V.T.Əmrahov, A.M.Qasımov, A.F.Həsənov, N.A.Nərimanov. Aqrar istehsal strukturunun diversifikasiyası |

| | | | | |
|---|---|---|---|---|
| | | | | |
| 2. | Məqalələr | | | |
| | həmçinin xarici nəşrlərdə | 1. Maharram Huseinov, Vahid Amrahov. About the production diversification issues in agriculture.// International Scientific Journal Theoretical & Applied Science. Sweden. Section economic research, finance, innovation, risk management - 2015. 174-176. http://TScience.org. http://s-o-i.org/1.1/TAS*04(24)31.<br>2. Vahid Amrahov. The institutional aspects of the formation of agricultural market. // ISJ Theoretical& Applied Science. USA. 10 (30): 72-74. Soi: http://s-o-i.org/ .1/ TAS-10-30-17 Doi: http://dx.doi.org/10.15863/TAS. 2015.10.30.17 | | 1. Maharram Huseinov, Vahid Amrahov. Economic evaluation of the factors causing diversification of the agrarian production. |
| 3. | Konfrans materiallarında məqalələr | 1. Р.Р. Мустафаева. Инвестиционные аспекты продовольственной проблемы. Aqrar elmin və təhsilin innovativ inkişafı: dünya təcrübəsi və prioritetlər. 23-24 oktyabr, Gəncə 2015. Səh.382-387. | | |
| | O cümlədən, beynəlxalq konfras materiallarında | | | |
| 4. | Məruzələrin tezisləri<br>həmçinin, beynəlxalq tədbirlərin toplusunda | 1. A.M. Qasımov. İnnovativ və modern aqrar sahənin formalaşmasında kooperasiyalaşmanın rolu. Davamlı inkişafın milli modeli və strategiyası. Mingəçevir 2015. Səh.208-209. | | |
| | | | | |
| 5. | Digər (icmal, atlas, kataloq və s.) | | | |

**2. İxtira və patentlər (sayı)**

| № | Elmi məhsulun növü | Alınmış | Verilmiş | Ərizəsi verilmiş |
|---|---|---|---|---|
| 1. | Patent, patent almaq üçün ərizə | | | |
| 2. | İxtira | | | |
| 3. | Səmərələşdirici təklif | | | |

### 3. Elmi tədbirlərdə məruzələr (sayı)

| № | Tədbirin adı (seminar, dəyirmi masa, konfrans, qurultay, simpozium və s.) | Tədbirin kateqoriyası (ölkədaxili, regional, beynəlxalq) | Məruzənin növü (plenar, dəvətli, şifahi, divar) | Sayı |
|---|---|---|---|---|
| 1. | Seminar | Ölkədaxili | Şifahi | 2 |
| 2. | Dəyirmi masa | Ölkədaxili | Dəvətli | 1 |
| 3. | | | | |

**SİFARİŞÇİ:**
**Elmin İnkişafı Fondu**

**Müşavir**
Babayeva Ədilə Əli qızı

_______________
*(imza)*
"09" mart 2016-cı il

**Baş məsləhətçi**
Qurbanova Səmirə Yaşar qızı

_______________
*(imza)*
"09" mart 2016-cı il

**İCRAÇI:**

**Layihə rəhbəri**
Hüseynov Məhərrəm Cəlal oğlu

_______________
*(imza)*
"09" mart 2016-cı il